**Xidmətlərin keyfiyyəti yüksələcək**

Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar ğzrə Düvlət Agentliyinin yaradılması informasiya-kommunikasiya texnologiyalarının düvlət qurumlarının fəaliyyətinə inteqrasiya edilməsi istiqamətində əhəmiyyətli addımdır

Hazırda hökumətin idarəetmə və xidmət siyasətində vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı sistemli tədbirlərin həyata keçirilməsi mühüm yer tutur. Azərbaycan hökuməti, eyni zamanda, idarəetmədə ən modern texnologiyaları tətbiq etmək, dövlət orqanlarının fəaliyyətində şəffaflığı artırmaq, vətəndaşlara göstərilən xidmətləri daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirmək üçün kompleks və uzunmüddətli islahatlar aparır. Bu mənada, ölkə başçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması barədə fərmanı mühüm aktuallıq kəsb edir. Prezidentin müəyyən etdiyi innovativ sosial xidmət platformasına dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi ilə bağlı sistemli tədbirlər planı daxildir. Agentlik dövlət orqanlarının xidmət mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmə aparılmasını, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetməni təmin edəcək. Bu sistemli tədbirlər şəbəkəsinə nəzarət olunacaq və xidmət bölmələrinin fəaliyyətini «ASAN xidmət» koordinasiya edəcək. Onu da qeyd edək ki, «ASAN» sözü işgiliscə Azerbaijan Service and Assessment Network (Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) söz birləşməsinin baş hərflərindən düzəldilmişdir, eyni zamanda, hamımızın başa düşdüyümüz asan (rahat) mənasını da ehtiva edir.

Yeni dövlət qurumu digər strukturlarla yanaşı, vergi orqanı əməkdaşlarının da vətəndaşlarla münasibətlərinin ən sivil, müasir səviyyədə qurulmasında, onlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsində mühüm rol oynayacaq. Vergilər Nazirliyinin 12 saylı Ərazı Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Azər Məmmədovun fikrincə, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da gücləndirilməsində elektron xidmətlərin tətbiqi mühüm yer tutur. Bu gün ölkəmizin bütün dövlət strukturlarında e-xidmətlərin tətbiqi əhəmiyyətli dərəcədə genişləndirilib və bu, vətəndaşlara keyfiyyətli xidmət göstərilməsini təmin etməklə yanaşı, həm də şəffaflığın səviyyəsini artırır. Hazırda e-xidmətlərin geniş tətbiq olunduğu sahələrdən biri vergi sistemidir. Vergilər Nazirliyi elektron xidmətlərin tətbiq olunmasında nümunəvi dövlət orqanı kimi çox mühüm addımlar atıb ki, bu da vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəlməsinə səbəb olub.

A.Məmmədovun fikrincə, Azərbaycanda vətəndaşlara xidmətin səviyyəsini artırmaq məqsədi ilə yaradılan yeni qurum dövlət orqanlarında innovativ, şəffaf, operativ, sosial idarəetmənin təmin edilməsinə, şəffaflığın dərinləşməsinə xidmət edəcək. Vətəndaşların müraciətlərinin internet vasitəsilə birbaşa cavablandırılması, virtual əlaqənin yaradılması, onların qarşılanma, dinlənməsi sonda şəffaflıq indekslərinin güclənməsinə imkan verəcək. Dövlət başçısının müəyyən etdiyi əsas hədəflər - xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsi bu istiqamətdə əhəmiyyətli dəyişikliklərə səbəb olacaq.

Elbrus CƏFƏRLİ